Kaspi-2017.-1-3 aprel.-S.24.

# EL SƏNƏTİNİ YAŞATMAQ YANĞISI

## *Şəbəkə ustası Hüseyn Hacımustafazadənin yaradıcılıq axtarışları*



Ziyadxan Əliyev

Ərəbcə "tor və qəfəs" mənasını verən şəbəkə Şərq, o cümlədən də, Azərbaycan memarlığında və dekorativ-tətbiqi sənətində istifadə olunan bədii konstruktiv forma olmaqla, həm də onu görənləri duyğulandıra biləcək bədii-estetik tutuma malik mənəvi qaynaqdır. Şəbəkənin yüksək estetik dəyər daşıyıcılığının nəticəsidir ki, onun yer aldığı Bakıdakı Sınıq qala (XI əsr) və Şirvanşahlar sarayı (XV əsr), Culfada Gülüstan türbəsi (XII əsr) və Qobustanda Diribaba türbəsi (XV əsr) daş, Şəkidə Şəki Xan sarayı (XVIII əsr) və Şəkixanovların evi (XVIII əsr), İrəvandakı Sərdar sarayı (XVIII əsr) və Gəncədə Cümə məscidinin minbəri (XVII əsr) ağac, çoxsaylı metalişləmə və zərgərlik nümunələri isə metal şəbəkələrin yaratdığı ecazkar görüntü ilə məşhurdurlar. Əgər metal şəbəkələr əridilib yığılmaqla lehim vasitəsilə bərkidilirsə, daş şəbəkələr isə oyulur. Fıstıqdan hazırlanan ağac şəbəkələr isə bir qədər fərqli hazırlanır. Şəbəkə müəyyən formalı çərçivə daxilində kiçik taxta parçalarını bir-birinə mismarsız və yapışqansız bənd olunması ilə yaradılır. Əlif yağı ilə doydurulan və "alat" adlanan həmin hissələrin bir ucunda diş, digər ucunda oyuq düzəldilir və yığma zamanı bir alatın dişi o biri alatın oyuğuna keçirilir. Əsasən həndəsi naxışlardan ibarət olan şəbəkə kompozisiyaları müxtəlif guşəli və içərisində rəngli şüşələr geydirilmiş xonçalardan - formalardan ibarətdir. Onların yaratdığı duyğulandırıcı bədii-estetik görüntü ölçüyəgəlməzdir...

Bu gün respublikamızda şəbəkə ənənələrini yaşadan əsas məkanın Şəki olması birmənalıdır. Qədimlərdən sənətkarlar yurdu kimi tanınan bu şəhərdə xalqımızın tanınma nişanına çevrilən şəbəkə sənəti yaşadılmaqdadır. Fransaya - Parisə üz tutan turistlərin Eyfel qülləsini və Luvrdakı "Mona Liza"nı görmədən geri dönməsi natamam səfər kimi dəyərləndirilirsə, Azərbaycana - Şəkiyə gələn əcnəbilərin buradakı məşhur Xan Sarayına və onun ecazkar şəbəkələrinə baxmadan, üstəlik Şəki paxlavasını və pitisini dadmadan getməsi uğursuz ziyarət hesab olunur. Əslində, heç yerli sakinlərin özləri buna imkan vermirlər. Belə ki, şəhərə gələn qonaqları hər addımda özünəməxsusluğu və milli tutumu ilə ovsunlayan xalq sənəti nümunələri ilə tanış etmək, Azərbaycan mədəniyyətinin zənginliyini xarici qonaqlara nümayiş etdirmək hər bir şəkili üçün qürurverici iş sayılır. Bu gün şəhərə ayaq basan qonaqlarda Şəki Xan sarayının unikallığına əmin olandan sonra, tikilinin interyerini zəngin rəng selinə bələyən şəbəkələrin hazırlandığı yerli emalatxanalarda onların hazırlanması prosesini görmək istəyinin yaranması da təbii sayılır. Sovet dönəmində qonaqların üz tutduqları ünvan şəbəkəçiliyin yaşadılmasında və inkişafında əvəzsiz rolu olan görkəmli sənətkar Əşrəf Rəsulovun (1928-1997) emalatxanası idisə, bu gün onları həmin məktəbin layiqli davamçıları olan Tofiq Rəsulov və Hüseyn Hacımustafazadənin yanına aparırlar.

Şəbəkə yaratmaq sahəsində artıq 30 illik təcrübəyə malik olan usta Hüseynin bu sənətə gəlişində heç şübhəsiz ona hər guşəsində gözəllik hissi aşılayan doğma şəhərin, qədim yurdun rəmzinə çevrilən Şəki Xan sarayının və onun rəsmli-şəbəkəli bəzəklərinin böyük təsiri olmuşdur. Qənaətimizcə, ruhunda gözəllik duyğusu gəzdirən şəbəkə ustasının yaşadığı məkanda - bilavasitə gözləri qarşısında ona ecazkarlığı ilə həm də əlçatmaz görünən sənət nümunələrinin yaradılması onu özünü bu sahədə sınamağa həvəsləndirmişdir. 1988-ci ildən başlayan yaradıcılıq bioqrafiyasında ən müxtəlif formalı və koloritli şəbəkələr yer alsa da, o, hələ də daha maraqlı və yeni forma-biçimli əsərlərin sorağındadır. Onun "Ən incə, ən gözəl şəbəkə Şəki Xan sarayındadır. O şəbəkələrdən dünyanın heç yerində yoxdur. İncəliyinə və gözəlliyinə görə hamısından seçilir" deməsində də onun sələflərinin yaradıcılığına böyük ehtiram duyulur. Bu mənada, hazırda ömrünün 44-cü baharını yaşayan sənətkarın 2002-2005-ci illərdə Xan sarayının şəbəkələrinin bərpasında iştirakını yaradıcılığının ən məsuliyyət hiss etdiyi dövrü hesab etməsini də təbii saymaq olar. Hüseyn Hacımustafazadənin məlum şəbəkə formalarına yeni nəfəs gətirmək istəyi bu gün onu bir çox həmkarlarından fərqləndirir, desək, yanılmarıq. Bu mənada, onun şəbəkənin bədii-texniki imkanlarını genişləndirmək arzusu yönündə apardığı yaradıcılıq axtarışlarını xüsusi qeyd etmək lazımdır. Onun 2009-cu ildə kürə formalı şəbəkə yaratması bu sahədə əyaniləşən yaradıcılıq arzularından biridir. 1800 ayrıntı-detaldan və rəngli şüşələrdən ibarət olan bu orijinal şəbəkə-formanın TÜRKSOY-un keçirdiyi beynəlxalq festivalın birinci mükafatına layiq görülməsi azərbaycanlı sənətkarın yüksək ustalığına verilən qiymət olmuşdur. Onun təsvirinin orta məktəblərdə tədris olunan "Təsviri incəsənət" (VIII sinif) dərsliyində yer alması da bu yaradıcılıq uğurunun rəsmi təqdirinin ifadəsidir.

Heydər Əliyev Fondunun 2012-ci ildə Vatikanda keçirdiyi "Azərbaycan - Qafqazın mirvarisi" sərgisində usta Hüseynin ərsəyə gətirdiyi "Xalça-şəbəkə" əsərinin böyük uğur qazanması da onun ildən-ilə kamilləşən sənətkarlığının göstəricisi olmuşdur. Bu əsərin 2013-cu ildə Avropa İttifaqının Cənubi Qafqazda "Sənətkarlıq irsi - inkişaf üçün platforma" layihəsi çərçivəsində üç respublika sənətkarlarının əl işlərinə baxış müsabiqəsində I yerə və mükafata layiq görülməsi də Azərbaycan bədii sənətkarlığının böyük uğuru kimi dəyərləndirilmişdir.



Kürə formalı şəbəkə

Daima şəbəkənin incəliyinə və forma-biçim rəngarəngliyinə çalışan Hüseyn Hacımustafazadənin yaratdığı "Nar-şəbəkə", "Aylı gecə", "Qəfəs" Tağlı şəbəkə" və s. bədii sənətkarlıq nümunələrində kompozisiyanın bütövlüyünün cəlbediciliyə köklənməsi aydın duyulur. Bu şəbəkə nümunələrində forma-biçim nə qədər həndəsi naxışlar məcmusu kimi qəbul olunsalar da, onlarda ağac-ayrıntıların nazilməsi və qalınlaşması ilə son nəticənin duyğulandırıcılığa xidmət etməsi qabarıq və görünəndir. Şəkəri-qızılı ağac-ayrıntılarla əhatələnmiş qırmızı, göy, yaşıl və sarı rəngli şüşələrin yaratdığı ecazkarlıqda həm forma-biçim orijinallığı, həm də məna-məzmun daşıyıcılığı olduğundan şəbəkələrin hər biri bədii-mənəvi qaynaq təəssüratı yaradandırlar.

Usta Hüseynin lap qədimlərdən gözümüzdə ənənəviləşən sandıq-saxlancı rənglərdən "azad" etməklə, onun səthlərini ovsunlayıcı naxış selinə bələməsi ilə bədii-estetik tutum daşıyıcısına çevirməsi heç şübhəsiz müəllifin yaradıcı təxəyyülünün sonsuzluğundan xəbər verir.

Onun respublikamızdakı qədim memarlıq tikililərinə əvvəlki gözəlliyin qaytarılması istiqamətində gördüyü işlər də diqqətçəkəndir. Bu mənad,a onun fəaliyyəti təkcə doğma şəhəri ilə məhdudlaşmır. Məlumat üçün bildirək ki, o, burada Şəki Xan sarayı, Şəkixanovların evi, Yuxarı Karvansaray, "Çələbi xan" restoranı və b. obyektlərin şəbəkələrinin bərpasında iştirak etmişdir. Şah Abbas məscidi (Gəncə), İmamzadə ziyarətgahı (Bərdə) və bir-neçə məscidin (Bakı) şəbəkələrinə ikinci həyat verilməsində də usta Hüseynin yaradıcı əməyi böyük olmuşdur.

Sənətkarın sənətinin sorağı çoxdan Şəki çərçivəsini aşmışdır. Onun müxtəlif formalı şəbəkələrinin Paris və Vyanadakı Azərbaycan Mədəniyyəti Mərkəzlərinin daimi ekspozisiyasında yer alması, əsərlərinin Türkiyə, Avstriya, Cənubi Koreya, Vatikan, Gürcüstan, İtaliya, Fransa, Birləşmiş Ərəb Əmirlikləri, Fransa və b. dövlətlərdə təşkil olunmuş Azərbaycan incəsənəti sərgilərində uğurlu nümayişi də bunun təsdiqidir.

Şəbəkə sənətinə yaradıcı münasibətinə görə 1997-ci ildə Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul olunan Hüseyn Hacımustafazadənin fəaliyyət dəfələrlə müxtəlif müsabiqə və sərgilərin mükafatlarına layiq görülməsi də onun milli incəsənətimizə verdiyi töhfələri sayılır. Sənətkarın 2006-cı ildə Şəki şəhər icra hakimiyyəti tərəfindən "İlin şəbəkə ustası" elan olunması isə onun şəbəkə sahəsində tutduğu mövqeyin necəliyini əks etdirir. Usta Hüseynin hazırda yeni-yeni layihələri gerçəkləşdirməklə məşğul olması da daima el sənəti ənənələrini qorumaq və zənginləşdirmək yanğısı ilə yaşayan, ona yeni nəfəs verməyə çalışan sənətkarın yaradıcı fantaziyasının sonsuzluğundan xəbər verir...





Aylı gecə



Nar